# POLİTOLOGİYA

**UOT 342.34**

## SİYASİ DEMOKRATİKLƏŞMƏNİN SOSİAL-SİYASİ DƏYƏRLƏRİ

**E.B.HACALIYEV**
***AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
***elnurhacali@mail.ru***

*Məqalədə siyasi demokratikləşmə şəraitində həyata keçirilən sosial-siyasi və mədəni–mənəvi tədbirlərin əhəmiyyəti, xüsusilə bu prosesin sosial-siyasi dəyərləri təhlil olunur və kontekstdə demokratik siyasi rejimin qeyri-demokratik rejimlərdən üstünlükləri üzə çıxarılır.*

**Açar sözlər:** siyasi demokratikləşmə, sosial-siyasi dəyərlər, siyasi rejim, demokratik, ictimai rəy

Demokratiya problemi xeyli vaxtdır ayrı-ayrı dövlətlərin və xalqların son dərəcə əhəmiyyət verdiyi çox əhəmiyyətli məsələ kimi nəzərə çarpır. XX əsrin sonları və XXI əsrin əvvəllərində posttotalitar inqilab ölkələrin böyük qruplarında demokratiyaya yol açmaqla və dünyanın siyasi mənzərəsini dəyişdirməklə, «qlobal demokratikləşmə» haqqında mülahizə yürütməyə imkan yaratmışdır.

İdarəetmənin liberal-demokratik sisteminin formalaşması və təkamülünün başlıca amilləri və mərhələləri, eləcə də demokratiya ideyası bütövlükdə vətəndaş cəmiyyəti və hüquqi dövlətin formalaşması və təkamülünün ən mühüm məqamları ilə üst-üstə düşür. Bundan əlavə, bu üç komponentin məcmusu liberal demokratik ictimai-siyasi sistemin əsasını təşkil edir.

Bu kontekstdə liberalizm, xüsusilə başlanğıc mərhələsində idarəetmənin demokratik formasının və hüquqi dövlətin formalaşması və qərarlaşmasına daha böyük töhfə bəxş etmişdir. Lakin müasir demokratiya qətiyyən liberalizmə müncər edilə bilməz. Müasir demokratiyanın formalaşmasına, xüsusilə XX əsrdə digər ideya-siyasi cərəyanlar da əhəmiyyətli töhfə bəxş etmişdir.

Müasir demokratiya mənafelərin nümayəndəliyi kimi səciyyələnir. Bütün vətəndaşlar siyasi həyatın iştirakçıları olmaq etibarilə, demokratik dövlətdə bərabər hüquqludur. Bərabərlik iki cür – qanun qarşısında bərabərlik və siyasi

hüquq bərabərliyi kimi səciyyələnir. Əmlak vəziyyətindən və vəzifəsindən, ictimai mövqeyindən asılı olmayaraq hamı qanun qarşısında bərabər hüquqludur. İnsanın cəmiyyətdə tutduğu mövqedən onu əxlaqi məsuliyyəti daha yüksəkdir, çünki hər bir fərdin qanuna qarşı laqeydliyi qanunçuluğa və xeyli insanın hüquq qaydalarına inamını aradan qaldırır.

Qeyd etmək vacibdir ki, yeni Avropa siyasi fikri demokratiyaya siyasi təşkil forması prinsipini əlavə etdi. Əlbəttə, uzun və qədim tarixə maik olan demokratiyanı Qərb sivilizasiyasının nəticəsi kimi dəyərləndirmək olar. Demokratiya anlayışının məzmununun dəyişilməsi ilə bağlı bu anlayışdan nəinki dövlətə hakimiyyətə münasibətdə, eləcə də lokal sosial və siyasi birliklərə – şəhər, kənd, istehsalat kollektivləri kimi birliklərə münasibətdə istifadə olundu. Müasir demokratik dövlət hüquqi dövlət kimi başa düşülür, çünki praktikada hakimiyyətin bölünməsi prinsipi həyata keçirilir və vətəndaşların hüquq və azadlıqları müdafiə edilir.

Vətəndaşların demokratik dövlətlərdə ümid bəslədiyi hüquq və azadlıqlar onların seçmək və seçilmək hüququ, öz rəyini azad surətdə ifadə etmək, siyasi partiyalar, digər ictimai-siyasi təşkilatlar, həmkarlar ittifaqları yaratmaq, mitinqlər, yığıncaqlar və nümayişlər keçirmək və b. hüquqları ilə səciyyələnir. Ən sarsılmaz demokratik azadlıqlardan biri söz azadlığıdır. Belə bir cəhəti qeyd etmək lazımdır ki, liberal- demokratik fikirdə azadlıqla bərabərliyin nisbətinə dair müxtəlif rəylər mövcuddur. Məsələn, azadlıq siyasi-hüquqi kateqoriya kimi əsaslandırılır və bərabərlik prinsipi ilə müqayisədə ona üstünlük verilir.

Hazırda çoxmənalı məzmun kəsb edən, «demokratiya» termini əhəmiyyətinə görə bir neçə mənada istifadə edilir.

**Birincisi**, özünün başlanğıc mənasında elə idarəetmə formasını təcəssüm etdirir ki, burada siyasi qərarların qəbulu hüququ istinasız bütün vətəndaşlar tərəfindən bilavasitə həyata keçirilir. Bu prosesdə o, fəaliyyətdə olan əksəriyyətin idarəetməsi qaydalarına müvafiq olaraq reallaşır. Belə forma birbaşa demokratiya və ya iştirakçılıq demokratiyası adlanır. Birbaşa demokratiya xalqın qlobal məsələlərin həllində bilavasitə iştirakının, eləcə də ərazi, digər dövlətdaxili, dövlətlərarası problemlərin həll edilməsinin çoxdan təşəkkül tapan əhəmiyyətli formasıdır. Xatırlatmaq yerinə düşər ki, birbaşa demokratiyanın xüsusi forması sayılan referendum ilk dəfə 1439-cu ildə İsveçrədə keçirilmişdir.

**İkincisi**, vətəndaşların öz hüquqlarını şəxsən deyil, məhz özlərinin seçdikləri və qarşılarında məsuliyyət daşıyan öz nümayəndələri vasitəsilə həyata keçirilən idarəetmə formasıdır. Bir qayda olaraq belə idarəetməni nümayəndəli və ya plüralist-demokratiya adlandırırlar.

**Üçüncüsü**, əksəriyyətin hakimiyyətinin konstitusiya ilə məhdudlaşdırılan çərçivədə reallaşmasını səciyyələndirən idarəetmə formasıdır. Onun məqsədi müəyyən fərdi və kollektiv hüquqların (məsələn, söz azadlığı, dini etiqad azadlığı və s.) həyata keçirilməsi üçün azlığa şərait yaradılmasına təminatdır. Bu liberal və ya konstitusion demokratiya adlandırılır.

**Dördüncüsü**, «demokratik» termini çox vaxt hər hansı siyasi və ya sosial sistemin demokratik olub-olmamasından asılı olmayaraq onun səciyyələndirilməsi üçün istifadə edilir. Belə sistem sosial və iqtisadi fərqləri minimal həddə çatdırmağı qarşısına məqsəd qoyur. Bu forma sosial demokratiya kimi dəyərləndirilir.

Qeyd etmək vacibdir ki, demokratiyanın formalaşması və bərqərar olması üçün yeni dövrdə meydana çıxan hər bir insanın həyata, azadlığa və xüsusi mülkiyyətə anadangəlmə hüququ haqqında ideya başlıca əhəmiyyət kəsb etdi.

Siyasi demokratikləşmənin mahiyyəti və sosial-siyasi dəyərləri yalnız haqqında mülahizələr yürütdüyümüz demokratik təsisatlar və digər məsələlərlə məhdudlaşmır. Demokratiya, eləcə də cəmyyət üzvlərinin iyerarxiyalı şəxsiyyətlərarası münasibətlərini nizama salan norma və prinsiplərin məcmuu kimi səciyyələnir. Hər halda müasir dünyada əhalinin demokratik idarəçilik formasına ciddi-cəhd etməsi təsadüfi deyildir. Bu baxımdan, demokratiya nəzəriyyəsində diqqəti cəlb edən, real praktikadan uzaq olan yanlış elmi mövqeyi diqqətdən yayındırmaq düzgün olmazdı. Məsələn, ötən əsrin 50-ci illərində E.Triffis, C.Plamenats və P.Pennokun fikirləri ilə razılaşmaq qeyri-mümkündür. Onlar iddia edirlər ki, demokratiyanın uğurlu inkişafı xristian cəmiyyətləri ilə bağlıdır. Bu mövqeyi bəzi fransız alimləri də müdafiə edirlər (1, 114). Lakin belə nöqteyi-nəzəri qəbul etməyən tədqiqatçılara da rast gəlinir. Belə ki, S.Lipset, D.Lerner, Q.Almond, Pay və başqaları düzgün olaraq qeyd edirlər ki, demokratiyanın uğurlu fəaliyyəti üçün başlıca zəmin dini-mədəni yox, məhz sosial-iqtisadi amillərdir (əhalinin hər nəfərinə düşən urbanizasiyanın səciyyəsi və s.).

Cəmiyyətin siyasi demokratikləşməsi uzun prosesdir. Bunun üçün rəqabətli bazar iqtisadiyyatına və vətəndaş cəmiyyətinin müstəqilliyinə əsaslanmaq başlıca şərtdir. Zəif demokratik siyasi rejimdə demokratik təsisatların davamlı, mükəmməl səviyyədə olması da çətin məsələdir. Bununla bağlı Q.O.Donnellin müəyyənləşdirdiyi deleqativ demokratiya tipini açıqlamaq zəruridir. Həmin politoloqun gəldiyi qənaətə görə deleqativ demokratiyanın daha da təkamülü bir neçə yolla mümkündür. Onlardan biri dərhal avtoritarizmə və totalitarizmə qayıtmaqdır. Digər yol isə rəqabətli iqtisadiyyata və hüquqi səlahiyyətə malik olan vətəndaş cəmiyyətinə əsaslanan plüralist tipli demokratiyaya cəhd etməkdir. Bir sözlə, hazırda dünya siyasi prosesləri istiqamətinə uyğun gələn siyasi təkamül yolu məhz demokratikləşmədir. Hakimiyyəti cilovlamaq, vətəndaşların dövlət özbaşınalığından müdafiəsinə təminat ümidi yalnız demokratik idarəçilik forması sayəsində mümkündür.

Demokratik siyasi rejimdə dövlət və vətəndaşların qarşılıqlı münasibətlərinin normaları, qaydaları və prinsipərinə yüksək səviyyədə əməl edilir, vətəndaş-dövlət münasibətləri sivil, demokratik xarakter daşıyır. Vətəndaşlarla dövlət arasında sivil dialoq kontekstində dəyərli sosial-siyasi məna kəsb edən konsensus qərarlaşır, bu isə formalaşmaqda olan yeni qlobal demokratikləşmənin tərkib hissəsi kimi çıxış edir (2, 4-5).

Müasir ictimai-iqtisadi tərəqqi siyasi demokratikləşməni xeyli dərəcədə stimullaşdırır, şəxsiyyətin demokratik mentalitetini və sərvət yönümünü əhəmiyyətli dərəcədə qidalandırır. Siyasi demokratiya siyasi mədəniyyətə malik olan ləyaqətli vətəndaşın, müstəqil düşüncə və təfəkkür tərzinə yiyələnən şəxsiyyətin formalaşmasını, vətəndaşların köklü hüquq və azadlıqlarının yüksək səviyyədə həyata keçirilməsini tələb və təmin edir. Demokratiya fərdi və ictimai inkişafa, humanist sosial-siyasi dəyərlərin reallaşmasına, insanların bərabərhüquqlu olmalarına, ədalətə, sosial yaradıcılığa əlverişli, real şərait yaradır. Demokratik sosial-siaysi dəyərlər cəmiyyətin öz təbiətini, məzmununu humanistləşdirir, sosial həyatı insaniləşdirir. Fransız sosioloji məktəbinin yaradıcısı Emil Dürkheym qeyd edirdi ki, sosial həyatın izahını cəmiyyətin öz təbiətində axtarmaq lazımdır. Bu mənada siyasi demokratikləşmənin humanist, insani təbiəti ilk öncə, demokratik cəmiyyət quruculuğu ilə bağlıdır.

Demokratik inkişafın müasir nəzəriyyəsində və praktikasında demokratik rejimlərin iki başlıca tipi müəyyənləşdirilir: elitar-demokratik və sosial demokratiya rejimləri. Elitar-demokratik siyasi rejimdə vətəndaşların hakimiyyətin demokratik təsisatlarına, hakimiyyət sisteminə təsiri məhdudlaşır. Vətəndaşlar geniş kütləvi siyasi qərarların qəbulu prosesində təsir etməkdən uzaqlaşdırılır, onlar siyasi proseslərə, dövlət səviyyəsində həyata keçirilən siyasətə təsir göstərmək imkanından məhrum edilir. Demokratik siyasi rejimin elitar-demokratik tipi üçün səciyyəvi olan siyasi plüralizm ilk öncə, mövcud siyasi elitaların rəqabətinə və daha nüfuzlu partiyaların yarışmasına aid edilir.

Demokratik siyasi rejimin ikinci tipi hesab olunan sosial demokratiya isə müxtəlif sosial qrupların və təbəqələrin maraq və mənafelərinin dolğun uyğunlaşdırılmasını ifadə edir. Bu tipli demokratik rejimin fəaliyyəti sosial-siyasi mənafelərin plürallığına, başlıca imkanların bütün vətəndaşlara və ictimai qruplara bərabər səviyyədə şamil olunması zərurətinə, həmçinin resursların ədalətli bölüşdürülməsi prinsipinə əsaslanır. Siyasi elmə aid ədəbiyyatda qeyd olunduğu kimi, ayrı-ayrı ictimai-siyasi qüvvələrin kompromisi və konsensusu sosial demokratiyanın inteqrativ başlanğıcı kimi çıxış edir və müxtəlif qrup mənafelərinin və partikulyar mənafelərin ümumi-siyasi vasitələrdən və parlament texnikasından istifadə etməklə uyğunlaşdırılmasına əsaslanır. Sosial demokratiya rejiminin siyasi sistemi "açıq" xarakter daşıyır, qanun çərçivəsində fəaliyyət göstərən hər hansı sosial-siyasi qüvvə isə siyasi qərarların qəbulu prosesinə təsir göstərmək və real müstəqil fəaliyyət hüququna malikdir. Əgər siyasi rejim idarəetmə üsulları, vasitələri və metodlarının məcmusudursa, siyasi sistem özündə siyasi hakimiyyətin təşkilini, cəmiyyət və dövlət arasındakı münasibətləri birləşdirir, siyasi fəaliyyətin vəziyyətini, siyasətdə iştirakçılığın xarakterini və təsisatlı mahiyyət daşımayan münasibətləri təcəssüm etdirir (3, 41). Bu baxımdan, demokratik siyasi rejim problemini təhlil edərkən, hər şeydən əvvəl, nəinki demokratiyanın mahiyyətindən, eləcə də müəyyən aspektdə siyasi sistem anlayışından çıxış etmək məqsədəuyğundur.

Ümumiyyətlə, demokratik siyasi rejimin konkret tiplərinin seçimi çoxlu amillərlə müəyyən edilir. Onlara aiddir:

- tarixi ənənələrin xarakteri və tarixi təcrübə;
- ölkənin maddi və mənəvi imkanları;
- resurslar;
- real siyasi qüvvələrin nisbəti;
- vətəndaşların siyasi şüurunun vəziyyəti;
- siyasi sistemi səciyyələndirən siyasi mədəniyyətin xarakteristikası (tipi);
- idarə edən elitanın başlıca xüsusiyyətləri.

Demokratik siyasi cəmiyyətin sosial-siyasi dəyərlərinə, eləcə də xalqın hakimiyyətin mənbəyi kimi çıxış etməsi, siyasi qərarların işlənib hazırlanmasına xalqın təsiri hüququ, iki və yaxud çoxpartiyalı sistemin yaradılması imkanı, insan hüquqlarının reallaşmasının yüksək dərəcəsi və s.aiddir.

Xalqın hakimiyyətin mənbəyini təşkil etməsi onunla səciyyələnir ki, o öz rəyinə əsaslanaraq nümayəndələrini seçir, onlara hər hansı bir məsələni həll etmək hüququ verir. Əgər seçilənlər seçicilərin onları hakimiyyət orqanlarında görmək istədikləri kimi davranmırsa, başqa sözlə, etimadı doğrultmursa, belə halda vəziyyəti yalnız növbəti səsvermə qaydaya sala bilər. Siyasi demokratikləşmə şəraitində qanun nəinki vətəndaşları hakimiyyətin özbaşınalığından, eləcə də hakimiyyəti vətəndaşlardan müdafiə edir. Bir sözlə, əsl demokratik cəmiyyətdə şəxsiyyətin, vətəndaşların dövlət üzərində üstünlüyü təmin olunur.

Demokratikləşmə şəraitində xalqın siyasi qərarların işlənib hazırlanmasına təsiri hüququ kütləvi informasiya vasitələrində təkliflər və ya tənqid formasında, nümayişlərdə və ya lobbiçilik fəaliyyətində, seçkiqabağı kampaniyada iştirak etməkdə təzahür edir. Qəbul edilmiş qərarların işlənib hazırlanmasında xalqın siyasi iştirakına konstitusiya ilə təminat verilir.

Siyasi demokratikləşmənin sosial-siyasi dəyərlərindən biri kimi iki və yaxud çoxpartiyalı sistemin yaradılması imkanını, siyasi partiyaların yarışqanlığını və onlara xalqın təsirini, eləcə də nəinki parlamentdə, həmçinin ondan kənarda qanun əsasında siyasi müxalifətin mövcudluğunu nəzərdə tutan siyasi plüralizmi qeyd etmək olar. Müxalifət hakimiyyət orqanlarını tənqid etməklə yanaşı, hakimiyyətə özünün parlamentdəki funksiyalarının və bloklarının fəaliyyəti vasitəsilə öz informasiya vasitələrində və mətbuatda fəaliyyəti ilə nəzarət edir.

Demokratik siyasi cəmiyyət, həmçinin insan hüquqlarının yüksək dərəcəsi ilə səciyyələnir. Bu öz ifadəsini dövlətlə vətəndaşların qarşılıqlı münasibətlərinin normaları, qaydaları və prinsiplərində tapır. Hazırda insan hüququnu elan edən və bunu qanunvericiliklə təsbit edən 50-yə yaxın siyasi-hüquqi sənəd mövcuddur. Onların sırasında BMT Baş Məclisinin 1948-ci il dekabrın 10-da qəbul etdiyi insan hüquqları haqqında ümumi bəyannamə, insan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası (Beynəlxalq mü-

qavilə - 1950-ci il), yeni Avropa üçün Paris xartiyası (1990-cı il) və s. göstərmək olar (4, 533).

Mövcud ölkədə şəxsiyyətin vəziyyəti necədir, insan və vətəndaş hüquqları və azadlıqları nə dərəcədə həyata keçirilir və müdafiə edilir məsələsi belə bir cəhəti ifadə edir ki, vətəndaş hüquqları və azadlıqları təsisatlarının insan hüquqlarına, fərdi azadlığa faktiki təminat verilməsini reallaşdıra bilməsi hansı səviyyədədir. Eləcə də vətəndaşların dövlətin idarə edilməsində fəal iştirakı, mülkiyyət, sahibkarlıq fəaliyyəti hüquqları, işçi qüvvəsinin azad fəaliyyəti və b. nəzərdə tutulur. Ləyaqətli həyat səviyyəsi, şəxsiyyətin sosial müdafiəsi və mənəvi inkişafı da bu qəbildəndir. Bir sözlə, hər hansı dövlətdə insan hüquqlarının həyata keçirilməsi dərəcəsi siyasi demokratikləşmənin modern mahiyyətini və siyasi dəyərlərini səciyyələndirən meyarlardan biridir.

Siyasi demokratikləşmə prosesinin əhəmiyyətli tərkib hissəsi müasir demokratiya üçün səciyyəvi olan universal demokratik proseduranın (üsulun) işlənib hazırlanmasıdır. Onlara aiddir:

1. Yüksək siyasi qanunverici orqanın xalq tərəfindən seçilməsi.
2. Hakimiyyətin seçkili orqanlarının mövcudluğu (bu səviyyədən özünü idarəyə qədər).
3. Seçicilərin bərabər hüquqa malik olmasının təmin edilməsi.
4. Bütün seçicilərin bərabər seçki hüququna malik olması.
5. Səsvermənin azad keçirilməsi.
6. Seçkilər səslərin əksəriyyətinin bütün səviyyələrində başa çatdırılmalıdır.
7. Çoxluğun qərarı azlığın hüququnu məhdudlaşdırır.
8. Cəmiyyətlə onun seçdiyi orqanların hakimiyyəti qarşılıqlı və mütənasib olmalıdır.
9. Demokratiya fasiləsiz və diqqətli ictimai nəzarətə məruz qalmalıdır.
10. Dövlət və cəmiyyət bütün sosial və siyasi səviyyələrdə münaqişələrin qarşısını almaq və aradan qaldırmaq üçün fəaliyyət mexanizmi işləyib hazırlayır (çoxluqla azlıq, sosial qruplar, millətlər, şəhər kənd arasında mövcud olan, eləcə də digər münaqişələrdən xilas olmaq məqsədilə).

Siyasi demokratikləşmənin modern mahiyyətini və sosial-siyasi dəyərlərini xalqlar arasında qarşılıqlı etimada və hörmətə əsaslanan münasibətlərin xarakteri də aydın ifadə edir. Bu hüquq bəzi beynəlxalq təşkilatların, eləcə də BMT-nin müəyyən sənədlərində təcəssümünü tapmışdır.

Demokratik təsisat olmaq etibarilə, ictimai rəy həmişə insanların ictimai həyatın bu və ya digər məsələlərinin həllinə, hökumətin, siyasi partiyaların və ayrıca şəxsiyyətlərin fəaliyyətinə müəyyən münasibətində əksini tapır. Hansı siyasi, hüquq, əxlaqi məsələlərlə bağlı formalaşmasından asılı olmayaraq o həmişə irəli sürülən, təklif edilən problemlərə münasibəti təcəssüm etdirir. Bəyənmə və ya pisləmə, arzu və tələb formasında münasibət ictimai rəyin ən əhəmiyyətli əlamətlərindən biridir.

Siyasi demokratikləşmə prosesində ictimai rəyin digər dəyərlərindən biri ondan ibarətdir ki, vətəndaşların ümumi maraqlarına toxunan problemlərlə əlaqədar formalaşır və onları maraqlandıran məsələlərə münasibətdə mövcud olan fikir ayrılığından irəli gəlir. Demokratik ictimai rəyin dəyərli əlaməti ancaq ondan ibarətdir ki, vətəndaşlar öz rəyini açıq və şəffaf bildirir və müdafiə edir, həmçinin onunla səciyyələnir ki o necə və nə dərəcədə geniş yayılır.

İctimai rəy öz təbiəti etibarilə subyektiv xarakter kəsb edir, lakin elmi biliklərin yüksək səviyyəsinə yönəlmək qabiliyyətinə də malikdir. Hegelin belə bir fikrini xatırlamaq yerinə düşər; xalq dövlətin üzvlərinin elə hissəsidir ki, nə istədiyini bilmir. Bu mənada, ictimai rəydə xurafat və yanlış fikri ön plana keçir. İctimai rəy insanların adi şüurunu ifadə edən mülahizə olduğu üçün elmi müddəaya əsaslanmır (5, 275-278).

İctimai rəyin mahiyyətindən çıxış edərərək belə bir mülahizə yürütmək olar ki, bu fenomen ilk öncə, insanların müəyyən birliyinin bu və ya digər obyektə aid gəldiyi qənaətidir, insanların özünəməxsus düşüncəli fəaliyyəti və davranışıdır. İctimai rəyin formalaşması meyarının seçiminə məhz ictimai mənafe və tələbat xidmət edir. «İnsan elə ictimai münasibətləri yaxşı hesab edir ki, onun üçün faydalıdır, elə münasibətləri pis sayır ki, ona zərərlidir» (6, 158). Hər cür qrupun, kollektivin rəyi deyil, məhz sosial mənafeyin meyarına uyğun gələn rəy ictimai rəy hesab olunur.

İctimai rəyin demokratik mahiyyətini səciyyələndirən cəhətlərdən biri ondan ibarətdir ki, o ictimaiyyətlə, ictimai münasibətlərin və sosial idarəetmənin tənzimlənməsilə bağlı vətəndaşların praktiki fəaliyyəti ilə əlaqə kəsb edir. İctimai idarəetmə ictimaiyyət tərəfindən rəylərdə ifadə edilən tələbat vasitəsilə həyata keçirilir. Dövlət idarəçiliyi hüququ əsaslanmadan mümkün olmadığı kimi, ictimai idarəetmə də ictimai rəyi nəzərə almadan mümkün deyildir. Rəy sayəsində vətəndaşların davranışının demokratik sosial normaları müəyyənləşdirilir və təmin olunur, münasibətlərin tənzimlənməsində inandırma metodunun tətbiqi həyata keçirilir. Bu baxımdan, demokratik cəmiyyətin rəyi ancaq informasiya növü kimi səciyyələnmir, o eləcə də vətəndaşlar tərəfindən sosial idarəetmə funksiyalarının həyata keçirilməsinin çox əhəmiyyətli vasitəsidir. İstər-istəməz rəy cəmiyyətinin sosial tənzimlənməsi və idarəolunması sisteminə qovuşur.

İctimai rəyin demokratik məqamlarından digəri siyasət hakimiyyət münasibətləri sistemində fəaliyyətdir. Onun hakimiyyət təsisatlarına təsir üsulları və formaları tamamilə çoxcəhətlidir: hakimiyyət təsisatlarının fəaliyyətini adi şifahi qaydada bəyənməkdən və ya pisləməkdən tutmuş, onlara birbaşa, məqsədyönlü təzyiqə qədər, hakimiyyətdaxili münasibətlərin dərindən yenidən təşkilinə təsir göstərmək qabiliyyətindəyik. İctimai demokratik rəy məhz daha çox hakimiyyət və siyasət sferasında xeyli kəskinliyi və dinamikliyi ilə təzahür edir. Bu cəhət xüsusilə demokratik tranzit, transformasiya cəmiyyəti üçün səciyyəvidir. Belə cəmiyyət adətən dövlət hakimiyyəti strukturlarının, demokratik təsisatların, siyasi və iqtisadi sferanın qeyri-sabitliyi ilə fərqlənir.

İctimai rəyin ən geniş yayılan, siyasət və hakimiyyət problemlərinə toxunan funkiyası qiymətləndirmə funksiyasıdır. Bu funksiya rəsmi hakimiyyət təsisatlarının və onların liderlərinin fəaliyyəti, məşhur siyasi hadisələr, cəmiyyətdə təşəkkül tapan situasiyanın xarakteri ilə və s. haqqında qiymətləndirici mülahizələri vasitəsilə əks etdirilir. Qiymətləndirmə funksiyası mütəşəkkil formada ilk öncə, ictimai rəy sorğusu yolu ilə müxtəlif ictimai təşkilatlar, partiyalar, hərəkatlar, qeyri-dövlət sifarişçiləri vasitəsilə üzə çıxarılır.

İctimai rəy hakimiyyət münasibətləri sferasında tez-tez öz nəzarət funksiyası vasitəsilə reallaşır. Bu funksiyanın özünəməxsusluğu ondan ibarətdir ki, ictimai rəy praktiki olaraq özü üçün əhəmiyyət daşıyan bu və ya digər məsələyə müəyyən mövqedən çıxış edir və çalışır ki, hakimiyyət orqanlarının və onların rəhbərlərinin müvafiq fəaliyyətində ictimai rəyi düşündürən məsələlər cavablandırılsın.

Cəmiyyət siyasi demokratiyanı öyrənir, onun mahiyyətini, sosial-siyasi dəyərlərini mənimsəməyə səy göstərir. Lakin demokratik təlim prosesi kifayət qədər uzun tarixi prosesdir. Onu süni formada deyil, məhz rasional səviyyədə və məqsədyönlü sürətləndirmək olar. Bir sözlə, demokratiya labüd tarixi zərurətdir, bəşəriyyətin rifahı, cəmiyyətin yenidən təşkili, təkmilləşməsi üçün lazımdır.

Dünya təcrübəsinin mənimsənilərək dəyərləndirilməsi belə bir qənaətə gəlməyi şərtləndirir ki, siyasi demokratikləşmə prosesinə nüfuz edən cəmiyyət birincisi, öz vətəndaşlarının və idarəetmə orqanlarının qanun qarşısında real bərabərliyini təmin etməlidir. İkincisi, cəmiyyət və vətəndaşlar hüquqa zidd hərəkətlərdən müdafiə olunmalıdır. Üçüncüsü, demokratik formalar və birgə yaşayış normaları təkmilləşdirilməlidir. Dördüncüsü, formal elan olunmuş və real fəaliyyətdə olan ictimai münasibətlər, hüquq, idarəetmə uyğunlaşdırılmalıdır. Beşincisi, insana hörmət, onda insani ləyaqət hissi və idarəetmənin bütün formalarına, həmvətənlərə əsil inam hissi tərbiyə edilməlidir. Altıncısı, müxtəlif ictimai qrupların və vətəndaşların ayrı-ayrı kateqoriyalarının, hakimiyyət və dövlət orqanlarının imtiyazları ləğv edilməlidir. Yeddincisi, cəmiyyət mədəniyyət sferasında, mənəvi həyatda, yaradıcılıq sahəsində himayəçilikdən uzaq olmalıdır. Səkkizincisi, cəmiyyət üzvlərinin yerli mərkəzi və eləcə də iqtisadi idarəetmə orqanları ilə müntəzəm əlaqəsi həyata keçirilməlidir. Ümumiyyətlə, demokratiyanın inkişafı və dəyərləri ictimai nəzarətin sosial funksiyası ilə, eləcə də obyektiv ictimai tənqidlə şərtlənir. Bu cəhət ictimai tərəqqinin hərəkətverici qüvvəsi kimi səciyyələnir.

**ƏDƏBİYYAT**

1. Зубов А.Б. Парламентская демократия и политическая традиция Востока. М.: Юнити-Дана, 1990, 390 с.
2. Василенко И.А. Политическая глобалистика. М.: Логос, 2000, 360 с.
3. Матвеев Р.Ф. Общая теория политических систем. М.: Наука, 1997, 321 с.
4. Əfəndiyev M. Siyasi elm. Bakı: Siyasət, 2010, 859 s.
5. Гегель Г.Ф. Философия права. М.: Мысль, 1990, 572 с.
6. Мир философии. М.: Полит. издат. 1991, 624 с.

## СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ЦЕННОСТИ ПОЛИТИЧЕСКОЙ ДЕМОКРАТИЗАЦИИ

**Э.Б.ГАДЖАЛИЕВ**

**РЕЗЮМЕ**

В статье анализируется значение социально-политических и духовно-культурных мероприятий, проводимых в условиях политической демократизации, в особенности социально-политические ценности этих мероприятий, и в этом контексте выявляются преимущества демократического политического режима перед недемократическими режимами.

**Ключевые слова:** политическая демократизация, социально-политические ценности, политический режим, демократический, общественное мнение

## SOCIO-POLITICAL VALUES OF POLITICAL DEMOCRATIZATION

**E.B.HAJALIYEV**

**SUMMARY**

The article analyzes the value of socio-political and spiritual-cultural events held in the conditions of political democratization, in particular, socio-political values of these actions and in this context, discloses the advantages of a democratic political regime over non- democratic ones.

**Key words:** political democratization, socio-political values, political regime, democratic, public opinion